Səh. 2 Etiraz – Azər Musaoğlu
Səh. 3 Ekran dövründə uşaqlıq... – Vüsalə Məmmədova
Səh. 5 Evləndirmə maklerləri – Binəli İslamoğlu
Səh. 6 Bizi deyib getdilər... – Esmira Ələkbərli
Səh. 2 Tələbənin mühitə adaptasiyası – Cəlal Yadigarlı
Səh. 4 VAHİD MİLLİ İMTAHANLAR VƏ ÜMUMİ MAGİSTRATURA İMTAHANLARI ÜÇÜN QEYDİYYAT BAŞLAYIB
Səh. 7 Belə-belə işlər: Qalaktion Tabidze – Mirzə Məmmədoğlu

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 APREL 2026-CI İL
№ 07 (247)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## 9 APREL HADİSƏSİNDƏN 37 İL ÖTÜR



37 il əvvəl, 1989-cu il aprelin 9-da Sovet ordusu Gürcüstanın müstəqilliyi tələbi ilə keçirilən dinc nümayişi tanklardan və zəhərləyici qazlardan istifadə etməklə vəhşicəsinə dağıdıb. Nəticədə 21 nəfər həlak olub, yüzlərlə insan yaralanıb, 3500 nəfər kimyəvi qazdan zəhərlənib.

Dinc aksiyanın dağıdılmasından iki il sonra, 1991-ci il aprelin 9-da Gürcüstan öz müstəqilliyini bərpa edib.

Gürcüstanda 9 Aprel tarixi Milli Birlik Günü, həmçinin müstəqillik uğrunda həlak olanların xatirə günü kimi qeyd edilir.

*9 Aprel qurbanları:*

**Aza Adamiya – 22 yaş;**
**Tamuna Dolidze – 28 yaş;**
**Mziya Cinçaradze – 43 yaş;**
**Giya Karseladze – 25 yaş;**
**Tamuna Covelidze – 16 yaş;**
**Natiya Başaleişvili – 16 yaş;**
**Eka Bejanişvili – 15 yaş;**
**Tina Enukidze – 70 yaş;**
**Nana Samarquliyani– 41 yaş;**
**Eliso Cipaşvili – 25 yaş;**
**Mamuka Nozadze – 21 yaş;**
**Nato Giorqadze – 23 yaş;**
**Manana Loladze – 34 yaş;**
**Nodar Canqiraşvili – 40 yaş;**
**Zaira Kikvidze – 61 yaş;**
**Manana Melkadze – 26 yaş;**
**Nino Toidze – 22 yaş;**
**Tamar Mamulaşvili – 50 yaş;**
**Marine Cqoniya – 31 yaş;**
**Şalva Kvasroliyaşvili– 35 yaş;**
**Venera Metreveli – 45 yaş.**



## QRANTLAR HAQQINDA QANUNA YENİDƏN DÜZƏLİŞLƏR TƏKLİF EDİLİB

“Gürcü Arzusu” “Qrantlar haqqında” Qanuna yenidən düzəlişlər təklif edib.



Hakim partiyanın deputatları qanuna növbəti dəyişiklik layihəsini parlamentə təqdim ediblər.

Layihəyə əsasən, Gürcüstanda akkreditə olunmuş diplomatik nümayəndəliklər, konsulluq qurumları və beynəlxalq təşkilatlar tərəfindən ayrılan bəzi vəsaitlər qrant kimi qiymətləndirilməyəcək. Söhbət xarici dövlətlərin və ya siyasi partiyaların siyasi, ictimai maraqlarından irəli gələn, diplomatik nümayəndəliklərin öz fəaliyyəti ilə birbaşa əlaqəli olan maliyyə vəsaitlərindən gedir.

Dəyişiklikdə qeyd olunur ki, bu cür vəsaitlərin qrant hesab olunması qanunun daha aydın və vahid şəkildə tətbiqinə xidmət edəcək. Layihənin izahlı qeydinə görə, mövcud qanunvericilik bu münasibətləri tam əhatə etməsə də, yeni dəyişikliklər hüquqi boşluqları aradan qaldırmağa yönəlib.

Xatırladaq ki, “Gürcü Arzusu”nun təşəbbüsü və parlamentin qəbul etdiyi əvvəlki qərarlarla xarici qrantların alınması qaydaları sərtləşdirilib.

## GÜRCÜSTANDA C5 KATEQORİYALI VİZA TƏTBİQ OLUNA BİLƏR




Gürcüstanda C5 kateqoriyalı yeni adi viza tətbiq oluna bilər. Bu məqsədlə “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu haqqında” Qanuna müvafiq dəyişikliklər ediləcək. Artıq bu qanun layihəsi Gürcüstan parlamentində sürətləndirilmiş prosedur çərçivəsində nəzərdən keçirilir.

Layihəyə əsasən, bu kateqoriyadan olan viza 5 illik etibarlılıq müddəti və Gürcüstanda 1 illik qalma müddəti üçün veriləcək.

C5 kateqoriyalı adi viza Gürcüstana qısamüddətli məqsədlərlə gələn, bu ölkəyə turist məqsədilə daxil olan və respublika ərazisindən kənarda fəaliyyət göstərən qeyri-rezident şəxslə əlaqəli olduqda, yalnız qeyri-rezident şəxsin xeyrinə fəaliyyət göstərmək hüququna malik olan şəxsə verilir. Bu kateqoriyalı viza, həmçinin şəxsin həyat yoldaşına və yetkinlik yaşına çatmayan uşaqlarına da verilir.

Qeyd edək ki, qanun layihəsi hakim Gürcü Arzusu – Demokratik Gürcüstan Partiyasının deputatları tərəfindən hazırlanıb və artıq parlamentdə müzakirəyə çıxarılıb.



# ETİRAZ

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

Mən fəhlələrin etirazını görmüşəm, sürücülərin etirazını görmüşəm, alverçilərin etirazını görmüşəm, əkinçilərin etirazını görmüşəm, naxırçıların etirazını görmüşəm, aktyorların etirazını görmüşəm, sakinlərin etirazını görmüşəm, sərnişinlərin etirazını görmüşəm... təkcə tələbələrin və müəllimlərin etirazını görməmişəm (Başqa coğrafiyalardakı dil daşıyıcıları təşvişə düşməsinlər, söhbət Gürcüstandan və gürcüstanlılardan gedir).

Mən şəhərlərində, kəndlərində, məhlələrində yolsuzluğa, işıqsızlığa, susuzluğa, özbaşınalığa, ictimai nəqliyyatsızlığa etiraz edən sakinlər, sərnişinlər arasında da heç müəllimləri görmədim. Yaşadığı şəhərin, kəndin, məhlənin yolsuzluğu, işıqsızlığı, susuzluğu, nəqliyyatsızlığı, özbaşınalığı bir yana, mən heç işlədiyi məktəbin yolunun, işığının, suyunun, nəqliyyatının olmamasına etiraz edən müəllimləri də görmədim – nə icra hakimiyyətinin binası qarşısında, nə televiziyada, nə radioda, nə də qəzetdə.

Bu o demək deyil ki, müəllimlərin günü-güzəranı əladır, onların etiraz edəcəkləri bir zad yoxdur, işlədikləri məktəblər təmirlidir, Avropa standartlarına cavab verir. Xeyr! Elə məktəblərimiz var heç rayon standartlarına da cavab vermir. Döşəməsi torpaq, beton, pəncərələri şüşəsiz, divarları sonuncu dəfə Sovet hökuməti zamanında yarıya qədər boyanmış, sinifləri hələ də odun sobası ilə isidilən, yağış yağanda tavanı daman, yel əsəndə yelçəkən olan, taxta tualeti 200-300 metr aralı olan, əlini yumağa su tapılmayan məktəblərimiz var. Demək olar ki, hər il təhsil naziri dəyişir və hər yeni təyin olunan nazir də müəllimlərin fikrini soruşmadan-eləmədən yeni-yeni qaydalar tətbiq edir, məktəbləri öz təcrübə laboratoriyasına çevirir, müəllimlərə o qədər kağız-kuğuz yazıb doldurmaq tapşırılır ki, dərs keçməyə vaxt qalmır, müəllim evə gedəndə də dincəlmir, onlayn treninqlərə qoşulur. Müəllimlərin əməkhaqqı deputatların maaşının yanında qəpik-quruşdur və sair, və ilaxır. Problemlərin siyahısını artırmaq da olar, amma, məncə, bu sadalananlar müəllimin etiraz etməsi üçün əsaslı səbəblərdir. Lakin müəllimlər etiraz etmirlər ki, etmirlər.

Etiraz deyəndə əllərinə molotov kokteyli alıb Təhsil Nazirliyinin binasına tolazlamalarını nəzərdə tutmuram, narahat olmayın. Onsuz da çox müəllimlərimiz heç Təhsil Nazirliyinin binasının harada yerləşdiyini bilmirlər. Paytaxtda getdikləri yer bir zooparkdır – uşaqları yığıb ekskursiyaya aparırlar; bir də seçkiqabağı hakim partiyanın zorla avtobuslara doldurub apardıqları mitinqlərdir.

Axı müəllimlərimiz yuxarıda sadalanan əsas problemləri çox yaxşı bilirlər, bu problemlərdən əziyyət çəkirlər, hətta toyda, yas yerində raslaşanda bu və digər problemlər haqqında danışırlar da, həlli yollarını da təklif edirlər. Sadəcə olaraq, birləşib aidiyyəti qurumlara öz irad və təkliflərini demirlər, etiraz etmirlər.

Başa düşürəm, heç kəs başını ağrıtmaq istəmir, az aşım, ağrımaz başım deyib, başını aşağı salıb işini görür, az-çox maaşını alır və qorxur ki, nəyəsə etiraz etsə işdən çıxararlar. İstəyirlər kimsə onların yerinə etiraz etsin, problemləri haqqında danışsın, problemlərini həll etsin və ya etdirsin. Bu kimsə də ayda, ildə bir namaz, onu da şeytan qoymaz. Bir də ki, bu kimsə çıxıb televiziyada, radioda, qəzetdə, nazirlikdə müəllimlərin problemlərindən danışanda ondan soruşurlar ki, hansı müəllimlərin, hanı o müəllimlər, problemləri varsa niyə özləri gəlib danışmırlar, sən kimsən, niyə təxribat törədirsən, sabotaj yaradırsan...

Müəllimlərdə etiraz edəndə işini itirmək qorxusu yaradan da elə müəllimlərin özləri olublar. Tanışlıqla, tapşırmaqla işə girən müəllim etiraz edəndə işini itirməkdən qorxub susacaq. Seçkilərdə saxtakarlığa qoşulan müəllim etiraz edəndə işini itirməkdən qorxacaq, ümumiyyətlə, seçkilərin saxtalaşdırılmasında könüllü, ya könülsüz iştirak edən müəllimin nəyəsə etiraz etməyə üzü olmayacaq, sözü olmayacaq. Saxta diplomla işə girən müəllim etiraz edəndə işini itirməkdən qorxacaq. Məktəbə gələcək nəsillərin təlim-tərbiyəsi, savadlanması, maariflənməsi üçün yox, qazanc yeri, çörək ağacı, karyera nərdivanı kimi baxanlar etiraz edəndə işini itirməkdən qorxacaq və sair, və ilaxır...

Ona görə də, etiraz edəndə işini itirməkdən qorxmamaq üçün ilk növbədə öz işinin peşəkarı olmalısan, hakimiyyətin səni öz oyuncağına çevirməyə imkan və zəmin yaratmamalısan; işə imtahan verərək öz bilik və bacarıqların hesabına girməlisən, kiminsə telefon zəngi, tapşırması, tanışlığı, qohumluğu ilə yox; məqsədin gələcək nəsillərin düzgün təlim-tərbiyəsi, savadlanması, maariflənməsi, ağ günə çıxarılması olmalıdır; məktəb "zauç", direktor və ya deputat olmaq üçün karyera nərdivanı olmamalıdır və sair.

Bir də ki, bütün müəllimlər etiraz edəndə hamını işdənmi çıxaracaqlar?.. Etiraz etməyən müəllimlər etiraz edə bilməyən amorflar yetişdirər. Bu gün susan, mövqeyi olmayan, passiv, təhsillə bağlı məlum qaydalara etiraz edənlərə quruca laykla, şərhlə belə həmrəylik bildirməyən tələbələrimiz buna ən bariz misaldır.

# TƏLƏBƏNİN MÜHİTƏ ADAPTASİYASI



Cəmiyyət arasında bəzən təhsil almaq üçün şəhərə gələn tələbələrdə mühitə adaptasiya problemi yarandığını eşidirik. Bəs həqiqətən kənddən gələn gənc şəhərə uyğunlaşmaqda belə problem yaşayırmı? Paytaxtımız adaptasiyası problemli olan şəhərdirmi?

Hələ qədimdən bu yana tələbələrin maddi sıxıntı ilə qarşılaşdığı məlumdur. Ancaq maddi sıxıntının da bir dərəcəsi var. Bir var ki, ailədən gələn pul ilə tələbə iqtisad edərək yaşaya bilsin, bir də var ki, tələbə işləməyə məcbur qalsın. Bizim əsas problemimiz ondadır ki, tələbələrin əksəriyyəti işləməyə məcbur qalır. Kənddən şəhərə gələn tələbə elə gəldiyi ilk gündən kirayə ev tapmaqda, otaq yoldaşı tapmaqda sıxıntı yaşayır. Bir sözlə desək, Tiflis tələbənin qabağına böyük şərtlər qoyur. Kirayənin həddindən artıq baha olması tələb edir ki, tələbə oxumaqla yanaşı işləsin. Hələ çiyinlərinə ağırlıq düşməmiş gənclər şəhərdə birdən-birə bu cür mühitə düşəndə sıxılmağa başlayırlar. Universitetdə ilk dərslərin çox ağır gəlməsi, qrupdakı uşaqlarla rahat əlaqə qura bilməmək, kirayə problemi, nəqliyyat problemi, ailə üzvlərindən ayrılıq və s. ilk aylarda, demək olar ki, hər tələbəni narahat edir. Buna isə adaptasiya problemi deyirik, lakin mənim fikrimcə, bu maddi və sosial sıxıntılardan yaranan müvəqqəti problemdir. Adaptasiya problemini yaradan ünsür isə dil baryeridir. Gürcü dilini yaxşı bilməyən tələbələr sosial əlaqələr qura bilmirlər. Aylar keçib dil baryerini aşdıqdan sonra bu problem də öz həllini tapa bilir. Hər şey öz yoluna düşdükdən sonra şəhər tam doğmalaşır. Əslində, Tiflis bizə o qədər də yad deyil ki, adaptasiya ola bilməyək.

Tələbənin ən əsas problemi maddi sıxıntıdır. Yataqxanaların olmaması tələbəni hər cəhətdən dara düşürür. Dövlət əgər sağlam nəsil yetişdirmək istəyirsə bu kimi problemlərin həll yolunu axtarmalıdır. Normal yataqxana tələbənin haqqıdır. Ucuz yataqxanalar təşkil olunsa, yemək verilsə tələbə ailəsindən aldığı məbləğ ilə iqtisadla dolana bilər və bütün enerjisini təhsilinə sərf edə bilər. Gənclərin təhsildə uğur əldə edə bilməməsinin əsas səbəbi, məncə, bu sadaladığım problemlərə bağlıdır. Gecəni "Spar"da işləyib yuxulu halda dərsə gedən tələbə o dərsi nə qədər qavraya bilər? Mən də tələbəliyimi bu şəkildə yola vermişəm. Gecəni işləyib, gündüzü dərsə getmişik. Təhsilə üstünlük verən dövlət tələbəni bu rejim ilə üzbəüz qoymamalıdır. Tələbə stipendiya almalıdır. Bu gün universitetlərdə stipendiyaya elə bir baryer qoyulur ki, onu toplamaq imkansıza bərabərdir. Məsələn, Tiflis Dövlət Universitetinin Humanitar fakültəsində stipendiyanın baryeri 97+ olur. Bu cür sanballı universitetlərdə bu balı toplamaq heç də asan iş deyil. Stipendiya maddi dəstəkdən əlavə, həm də tələbə üçün böyük bir stimuldur. Kiçik məbləğ də olsa ən azından 80+ toplayan tələbə şəhərin bahalılığı nəzərə alınaraq stipendiya ilə təmin olunmalıdır.

Bir cəhətdən də tələbənin işləyib öz ayaqları üstündə dura bilməsi müsbət haldır. Həyatın istisini-soyuğunu görən gənclər irəlidə öz işlərini qurmaqda çətinlik çəkmirlər. Yaxşıdır ki, tələbə 3 və 4-cü kurslarda işləsin. Axırıncı kurslarda həm dərs rejimi yüngülləşir, həm tələbə dil baryerini aşır, həm şəhərə tam uyğunlaşmış olur. İşlə təmin etməni də dövlət öhdəsinə götürsə gəncliyin uğuru naminə böyük addım olar. Yüngül işlərə tələbələrin dəvət olunması təqdirə layiq təşəbbüs ola bilər.

Yekun olaraq deyə bilərik ki, tələbə üçün bütün problemlərin kökündə maddiyyat durur. Əgər tələbə yataqxana və yemək ilə az məbləğ qarşılığında təmin olunsa, stipendiya ilə stimul qazansa bu problemlərin həll olacağına mən inanıram. Kəndlərdən gələn tələbə ilk gündən işləməyə məcbur edilməməlidir.

**Cəlal Yadigarlı**
*Tbilisi Dövlət Universitetinin Tarix fakültəsinin 4-cü kurs tələbəsi*

# AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ: REGIONAL ƏMƏKDAŞLIĞIN DAVAMLI İNKİŞAF MODELİ



Cənubi Qafqaz regionunda sabitliyin və inkişafın təmin olunmasında Azərbaycan və Gürcüstan arasında formalaşmış münasibətlər xüsusi əhəmiyyətə malikdir. Bu münasibətlər uzun illər ərzində qarşılıqlı etimad, siyasi dəstək və ortaq strateji maraqlar əsasında inkişaf edərək bu gün regional əməkdaşlığın uğurlu modeli kimi qiymətləndirilir.

Azərbaycan-Gürcüstan əməkdaşlığı ilk növbədə enerji sahəsində özünü göstərir. Həyata keçirilmiş iri layihələr regionun enerji xəritəsini dəyişdirmiş, tərəfləri beynəlxalq enerji təhlükəsizliyində mühüm tərəfdaşlara çevirmişdir. Bu əməkdaşlıq yalnız iqtisadi deyil, eyni zamanda geosiyasi baxımdan da əhəmiyyətli nəticələr doğurmuşdur.

Nəqliyyat və logistika sahəsində qarşılıqlı fəaliyyət də diqqətəlayiqdir. Asiya ilə Avropanı birləşdirən nəqliyyat dəhlizlərinin inkişafında hər iki ölkənin rolu getdikcə artır. Xüsusilə Orta Dəhliz çərçivəsində həyata keçirilən təşəbbüslər regionun tranzit potensialını gücləndirməklə yanaşı, beynəlxalq ticarət əlaqələrinin genişlənməsinə xidmət edir.

Siyasi münasibətlər baxımından Azərbaycan və Gürcüstan arasında yüksək səviyyəli dialoq və qarşılıqlı dəstək mövcuddur. Tərəflər regional məsələlərdə bir-birinin mövqeyini nəzərə alaraq koordinasiyalı siyasət yürüdür ki, bu da Cənubi Qafqazda sabitliyin qorunmasına mühüm töhfə verir.

Bu kontekstdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana son səfəri iki ölkə arasında mövcud əməkdaşlığın daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli hadisə kimi qiymətləndirilə bilər. Səfər çərçivəsində aparılan müzakirələr və səsləndirilən yanaşmalar göstərir ki, tərəflər strateji tərəfdaşlığı daha praktik və nəticəyönümlü istiqamətdə inkişaf etdirmək niyyətindədir.

Humanitar sahədə əlaqələr də münasibətlərin mühüm komponentidir. Gürcüstanda yaşayan azərbaycanlı icması iki ölkə arasında dostluq və əməkdaşlığın gücləndirilməsində xüsusi rol oynayır və bu münasibətlərin davamlı xarakter almasına töhfə verir.

Nəticə:

Azərbaycan-Gürcüstan münasibətləri regional əməkdaşlığın sabit və uğurlu nümunəsi kimi çıxış edir. Mövcud əməkdaşlıq modeli qarşılıqlı fayda prinsipi əsasında inkişaf edərək gələcəkdə daha geniş perspektivlər vəd edir. Bu baxımdan tərəflər arasında strateji tərəfdaşlığın möhkəmləndirilməsi regionda sabitlik və inkişaf üçün mühüm əhəmiyyət daşıyır.

**Xatirə Daşdəmirova**

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin rus dili və ədəbiyyatı müəllimi*

# EKRAN DÖVRÜNDƏ UŞAQLIQ: KÖRPƏLƏRİN İNKİŞAFI VƏ MÜASİR TƏRBİYƏ REALLIQLARI

*"Uşaqlar dediklərimizi yox, yaşadıqlarını öyrənirlər."*



Müasir dövrdə uşaqların inkişafı əvvəlki nəsillərlə müqayisədə fərqli istiqamətdə formalaşır. Məktəbəqədər təhsil sahəsində çalışan bir mütəxəssis kimi gündəlik müşahidələrim göstərir ki, bu dəyişikliklər həm mühitin, həm də tərbiyə üsullarının yenilənməsini zəruri edir. Uşaqların davranışları, ünsiyyət formaları və emosional reaksiyaları artıq daha fərqli xüsusiyyətlər nümayiş etdirir.

Bu dəyişikliklərin əsas səbəblərindən biri texnologiyanın erkən yaş dövrünə sürətli təsiridir. Rəqəmsal cihazlar uşaqların həyatına çox erkən daxil olur və bu, onların diqqət müddətinə, nitq inkişafına və sosial bacarıqlarına birbaşa təsir göstərir. Canlı ünsiyyətin azalması, virtual mühitin isə artması uşaqların emosional dünyasında müəyyən boşluqlar yaradır.

Müşahidələr göstərir ki, bəzi uşaqlarda səbirsizlik, diqqət dağınıqlığı və emosiyaları düzgün ifadə edə bilməmək kimi hallar daha çox müşahidə olunur. Bu xüsusiyyətlər onların həm təlim prosesinə qoşulmasına, həm də yaşıdları ilə münasibət qurmasına çətinlik yaradır. Halbuki bu dövr uşağın sosial və emosional bacarıqlarının formalaşdığı ən həssas mərhələlərdən biridir.

Uşağın inkişafında ailə mühitinin rolu isə danılmazdır. Valideynlərlə qurulan münasibət, evdəki emosional atmosfer və uşağa ayrılan keyfiyyətli vaxt onun psixoloji vəziyyətinə birbaşa təsir edir. Uşaq üçün sevgi, diqqət və anlaşılmaq hissi əsas ehtiyaclardandır. Bu ehtiyaclar qarşılanmadıqda, uşaq özünü ifadə etməkdə çətinlik çəkə və daxili narahatlıq yaşaya bilər.

Müasir yanaşmada oyun fəaliyyətinin əhəmiyyəti də xüsusi vurğulanmalıdır. Oyun uşağın öyrənmə, düşünmə və dünyanı dərk etmə vasitəsidir. Lakin bu gün sərbəst və yaradıcı oyunların yerini getdikcə daha çox passiv fəaliyyətlər tutur. Bu isə uşaqların həm yaradıcılıq potensialının, həm də müstəqil düşünmə qabiliyyətinin zəifləməsinə səbəb olur.

Bununla yanaşı, uşaqlarda erkən yaşlardan məsuliyyət hissinin formalaşdırılması vacibdir. Kiçik tapşırıqların verilməsi, gündəlik vərdişlərin öyrədilməsi və müstəqilliyin təşviqi onların özünə inamını artırır və gələcək həyatlarına müsbət təsir göstərir.

Müasir tərbiyə sistemində emosional intellektin inkişafı da mühüm yer tutur. Uşaqlara öz hisslərini tanımaq, onları düzgün ifadə etmək və idarə etməyi öyrətmək onların sosial münasibətlərində daha uğurlu olmasına kömək edir.

Bu prosesdə müəllimin rolu yalnız bilik verən deyil, həm də uşağa istiqamət göstərən, onu anlayan və dəstəkləyən bir şəxs kimi dəyərləndirilməlidir. Müəllimin yanaşması uşağın şəxsiyyət kimi formalaşmasına birbaşa təsir edir.

Eyni zamanda valideyn və müəllim əməkdaşlığı uşağın inkişafında əsas amillərdən biridir. Bu əməkdaşlıq uşağın həm evdə, həm də təhsil mühitində eyni dəyərlərlə böyüməsinə şərait yaradır.

Nəticə olaraq qeyd etmək olar ki, müasir dövrdə uşaqların sağlam inkişafı yalnız təhsil ilə məhdudlaşmır. Onların emosional rifahı, psixoloji dəstəyi və düzgün tərbiyə mühiti əsas rol oynayır. Sevgi, diqqət və düzgün yanaşma ilə böyüyən uşaq gələcəyin güclü və balanslı fərdinə çevrilir.

**Vüsalə Məmmədova**

## VAHİD MİLLİ İMTAHANLAR VƏ ÜMUMİ MAGİSTRATURA İMTAHANLARI ÜÇÜN QEYDİYYAT BAŞLAYIB




Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin (NAEC) yaydığı məlumata görə, 2026-cı ilin vahid milli və ümumi magistratura imtahanları üçün qeydiyyat aprelin 6-da başlayıb.

NAEC-in bildirdiyinə görə, abituriyentlər və magistraturaya namizədlər elektron qaydada, mərkəzin internet səhifəsində (**online.naec.ge**) 11 may saat 18:00-dək qeydiyyatdan keçə bilərlər.

Müraciət edənlər qeydiyyatı 11 may saat 18:00-dək tamamlaya bilmək üçün mütləq şəkildə 6 aprel saat 10:00-dan 6 may saat 18:00-dək imtahan verəcəkləri fənlərin (ən azı bir fənnin) ödənişini təmin etməlidirlər. Sözügedən dövr ərzində onlar digər fənlərin ödənişini edə, imtahan verəcəkləri şəhəri və təhsil proqramlarını seçə və ya dəyişə bilərlər.

Ali təhsil islahatı çərçivəsində, dövlət universitetlərində bakalavr və magistr pillələri üzrə, həmçinin dövlət peşə təhsili müəssisələrinin təhsil proqramlarında təhsil tamamilə dövlət tərəfindən maliyyələşdiriləcək. Abituriyentlərin həm ali, həm də peşə təhsili üzrə istədikləri sayda təhsil proqramı seçmək və onların prioritetini müəyyən etmək imkanı var. Təhsil proqramlarının əlavə edilməsi, silinməsi və ya yerlərinin dəyişdirilməsi apelyasiya nəticələri elan edildikdən sonrakı gün saat 18:00-a qədər mümkün olacaq.

Məlumat kitabçasına gəldikdə isə, NAEC-in məlumatında qeyd olunur ki, qurum "Abituriyentlər üçün məlumat kitabçası"nı qeydiyyat başlamazdan əvvəl dərc edəcək. Sözügedən sənəd vahid milli imtahanlarla bağlı bütün məlumatları, o cümlədən təhsil proqramlarının siyahısını, imtahan qeydiyyatı üçün təlimatları, imtahan prosedurlarını, prosesin mərhələlərini və qaydalarını əhatə edir.

Vahid milli imtahanlarda iştirak edən abituriyentlər üçün hər bir fənnin qiyməti 10 lari, magistratura namizədləri üçün ümumi magistratura imtahanında iştirak haqqı isə 50 lari təşkil edir.

Ödəniş Gürcüstan Bankı platformaları vasitəsilə, xüsusən də onlayn ödəniş sistemi (bogpay.ge), internet bankinq (ibank.ge), mobil tətbiq (mBank) və özünəxidmət terminalları ilə həyata keçirilir.

Ali təhsil islahatı çərçivəsində bu il abituriyentlərin ali təhsil proqramları ilə yanaşı, peşə təhsili proqramlarını da seçmək imkanı var.

Dəyişikliklərə əsasən, mərkəzin qeydiyyat portalında təhsil proqramları üç kateqoriya üzrə təqdim olunur: "Bakalavr", "Peşə" və "Gürcü dili hazırlığı" (Gürcü dili hazırlığı üzrə birillik təhsil proqramı). Ali təhsil proqramı seçmək üçün abituriyentlər "Bakalavr" xanasını işarələməli və istədikləri proqramı seçməlidirlər. İstədikləri təqdirdə, onlar əlavə olaraq peşə proqramlarını da seçə bilərlər, bunun üçün isə "Peşə" xanasını işarələmək lazımdır.

Təhsil proqramlarının prioritetlərə görə sıralanması abituriyentlər üçün məcburi tələbdir, çünki proqrama qəbul zamanı qeydiyyat ərizəsində birinci yerdə qeyd olunan proqrama üstünlük verilir.

İslahat çərçivəsində, dövlət təhsil müəssisələrində bakalavr və magistr pillələrində, həmçinin peşə təhsili proqramlarına qəbul olunan tələbələrin təhsili tamamilə dövlət tərəfindən maliyyələşdirilir. Bununla yanaşı, özəl peşə təhsili müəssisələrində prioritet istiqamətlər üzrə maliyyələşməni də dövlət təmin edir.

***Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz abituriyentləri qeydiyyat müddətləri və prosedurları ilə tanış olmağa, prosesin bütün mərhələlərini müəyyən olunmuş vaxt çərçivəsində keçməyə çağırır.***

## BİRİNCİ SİNİFLƏRİN I VƏ II MƏRHƏLƏSİNİN QEYDİYYAT MÜDDƏTİ DƏYİŞİB



Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyinin yaydığı məlumata əsasən, şagirdlərin birinci sinfə qeydiyyatının I və II mərhələlərinin vaxtları ilə əlaqədar dəyişiklik edilib.

Məlumata görə, dəyişiklik çərçivəsində xüsusi təhsilə ehtiyacı olan şagirdlərin valideyn və qanuni nümayəndələrinə 6 apreldən 8 aprelə kimi istədikləri məktəbə müraciət etmək, uşaqları birinci sinfə qeydiyyat etmək üçün əlavə imkan verilib.

Bundan əlavə, dəyişiklik qeydiyyatın II mərhələsinə də aiddir. **Qeydiyyatın II mərhələsi 21 aprel əvəzinə 24 apreldə başlayacaq və 8 mayda başa çatacaq.**

***II mərhələdə qeydiyyatdan keçəcək uşaqlar:***

- Bacı-qardaşı həmin ictimai məktəbdə təhsil alırsa;
- Valideyni/qəyyumu həmin ictimai məktəbin əməkdaşıdırsa;
- Ailədən eyni zamanda iki və ya daha çox uşaq birinci sinfə gedirsə.

Givi Mikanadzenin qurumunun məlumatına görə, xüsusi təhsilə ehtiyacı olan uşaqların valideynləri istədikləri ictimai məktəbə ərizə ilə müraciət etməlidirlər. Məktəb rəhbərliyi uşağı Təhsilin İdarəsi üzrə Məlumat Sistemində (EMIS) qeydiyyatdan keçirəcək.

Xüsusi təhsil ehtiyacını təsdiq etmək məqsədilə valideyn məktəbdə müvafiq müraciət forması doldurmalıdır. Sonra təhsil müəssisəsinin Mandatur Xidmətinin İnklüziv və Xüsusi Təhsilin Dəstəklənməsi Mərkəzinin (idarəçilik) psixo-maarifləndirici qiymətləndirmə mütəxəssisləri tərəfindən uşağın qiymətləndirilməsi, onun təhsil ehtiyaclarının müəyyən edilməsi baş verir.

Xüsusi təhsil ehtiyacı təsdiq olunarsa bu halda məktəb şagirdin qəbul edilməsini psixo-maarifləndirici, qiymətləndirmənin nəticəsi və müvafiq sənədlər əsasında təmin edir.

***"Ümumi təhsil haqqında" qanuna edilmiş dəyişikliyə əsasən, istisna hal kimi, 2026–2027-ci tədris ilində 31 dekabr 2026-cı il tarixinədək 6 yaşı tamam olan uşaqlara birinci sinfə qeydiyyatdan keçmək imkanı verilir.***

***Qeydiyyatın bütün mərhələlərinin maneəsiz şəkildə həyata keçirilməsi məqsədilə, I və II mərhələlərin tarixlərinin dəyişdirilməsi barədə qərar qəbul edilib",*** – deyə Təhsil Nazirliyinin 4 aprel tarixli məlumatında bildirilir.

## MÜƏLLİMLƏR ÜÇÜN PEŞƏ BACARIQLARI İMTAHANI LƏĞV OLUNUB



Fənn və peşə bacarıqları imtahanının keçirilmə qaydasında dəyişiklik edilib. Təhsil, elm və gənclər nazirinin sərəncamına əsasən, fənn və peşə bacarıqları imtahanı qaydasının adı dəyişdirilərək "Fənn imtahanının keçirilmə qaydası" ilə əvəz olunub.

Fənn imtahanının keçirilmə qaydası ictimai hüquqi şəxs – Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz tərəfindən elan edilmiş fənn imtahanının keçirilməsi ilə əlaqədar məsələləri müəyyən edəcək.

Test – fənn imtahanının keçirilməsi məqsədilə Mərkəz tərəfindən "Milli Tədris Planı" və "Müəllimin Peşəkar Standartı"-na uyğun olaraq hazırlanmış test tapşırıqları və cavab vərəqi formasıdır. Bu materiallar Mərkəzin rəsmi saytında (www.naec.ge) dərc olunana qədər gizli hesab olunur.

Sərəncamda qeyd olunub ki, imtahanda hər bir fənn üzrə iştirak etmək üçün 50 lari ödənməlidir.

Müvafiq fənn üzrə imtahan bütün imtahan mərkəzlərində eyni zamanda həyata keçirilir. Bir fənn üzrə imtahan iki gün ərzində də keçirilə bilər.

Fənn komissiyası tərəfindən qərar qəbul olunduqdan 20 gün ərzində Mərkəz direktorunun fərdi inzibati-hüquqi aktı ilə fənn imtahanını uğurla vermiş şəxslərin siyahısı təsdiq olunur.

Fənn imtahanını uğurla vermək üçün Mərkəzin təqdimatı ilə təhsil, elm və gənclər naziri tərəfindən müəyyən edilmiş keçid balını toplamaq tələb olunur. Bu barədə ilin əvvəlində, yeni sxem yayımlananda məlumat verilmişdi.

Xatırladaq ki, peşə bacarıqları testində müəllimlərin peşəkar inkişafı və karyera yüksəlişi sxemində yer alan baş və ya aparıcı müəllim statusuna malik şəxslər iştirak edə bilirdi. Həmin müəllim fənn və ya fənn kompetensiyasını ən azı 50 % nəticə ilə yeniləməli, yaxud doktor akademik dərəcə əsasında baş müəllim statusu verilmiş şəxs olmalıdır.

*Səhifədəki məlumatlar "edu.aris.ge" və "etaloni.ge" saytlarından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi* ***Aynurə Əliyeva***

# XOŞBƏXTLİK, YOXSA İTİRİLMİŞ GƏNCLİK?



Bəzi cəmiyyətlərdə qızların erkən yaşda evləndirilməsi, gəlin köçüb ailə qurması adi bir hal kimi qəbul edilir. Bir çoxlarının beynində də bu, artıq belə formalaşıb, belə də davam edir. Erkən yaşda evliliklərin müxtəlif cür səbəbləri var. Bəzən qismət, bəzən adət, bəzən də "vaxtıdır" deyilir. Bəzi ailələr də "qız evdə çox qalmaz" düşüncəsi ilə hərəkət edir və bunu bir növ dəyişməz qanun kimi görürlər.

Bu yanaşma qız övladını bir fərd kimi yox, cəmiyyətin qoyduğu qaydaları yerinə yetirməli olan bir robot kimi görülməyə gətirib çıxarır. Ən ağrılı tərəfi isə odur ki, belə hallarda qızın fikri, istəyi, arzuları, ümumiyyətlə, nəzərə alınmır. Onun gələcəyi haqqında qərar verilir, amma o qərarın içində qızın səsi eşidilmir.

Bəzən isə bu, qızların öz seçimi olur. Adına sevgi, eşq desələr də, bunun əsl səbəbi sadəcə maraqdır. Filankəs tez evləndi, ona çoxlu pal-paltar, qızıl, telefon, kosmetika aldılar, gedim, mənə də alsınlar, mənim də olsun, mən ondan geri qalmayım. Bu kimi maraqlar qızların beynini elə yuyur ki, hər şeyi, təhsili, gələcək arzularını yarımçıq qoymaq bahasına tez bir zamanda ailə qurmaqdan başqa bir şey fikirləşmirlər.

Bir sözlə, səbəb hər nə olur olsun, istər ailənin məcburiyyəti, istər qızın istəyi – nəticə dəyişmir, qızların gələcəyi haqqında erkən qərar verilir. Onlara yeni bir tale yazılır, yeni bir yol göstərilir, amma bu yolun axırını fikirləşmək, təəssüf ki, heç kimin ağlına gəlmir. Hər kəsə son dərəcə adi görünən qərarın arxasında çox zaman danışılıb, hiss olunmayan və ən əsası, başa düşülməyən talelər gizlənir.

Hələ həyatın nə olduğunu tam dərk etməmiş, arzularının sərhədlərini belə çəkməmiş bir qız birdən-birə birinin həyat yoldaşı, yad bir ailənin gəlini və tez bir zamanda da balaca bir körpənin anası rolunu üzərinə götürür. Beləcə, həmin qız üçün oyuncaqlar, dostluqlar, məktəb xatirələri yavaş-yavaş yox olur. Onların yerini daha ağır məsuliyyətlər, hər gün artan həyat qayğıları tutur və artıq əlində gəlincik yox, canlı bir körpə olur. Qısası, o qız böyümür, böyüməyə məcbur edilir.

Mütləqdir ki, hər bir ailə övladları üçün düzgün seçim etmək istəyir. Amma bu qərar çox vaxt bədbəxtliklə nəticələnir. Bəziləri deyə bilər ki, erkən evlənib xoşbəxt olanlar da var. Bəli, var. Ancaq bu, bütün hekayələr eyni sonluqla bitəcək demək deyil. Çünki xoşbəxtlik insan həyatına təsadüfən gəlmir. Hər bir insanın xoşbəxtliyi seçmək haqqı olmalıdır. Bəzən "seçim" deyilən anlayış sadəcə bir söz olaraq qalır.

Erkən evliliklərin ən ağır tərəflərindən biri də bu evliliklərin psixoloji yüküdür. Hələ özünü tanımayan bir insanın başqa biri ilə həyatı paylaşmağa məcbur qalması, büruzə verməsə də, onun daxilində dərin izlər buraxır. Qorxu, tənhalıq, başa düşülmək hissi zamanla onun daxili dünyasını səssizcə darmadağın edir. O qız hər zaman gülümsəyir, amma içində qəlbi qırıq, oyuncağı əlindən alınmış bir uşaq olur və heç kim onu görmür. Tək psixoloji yox, fiziki olaraq xəstələnən də az olmayıb.

Erkən yaşda qurulan ailələr bəzən bir qızın həyatını qurmaq əvəzinə, onu yarımçıq qoyur. Bir az əvvəl də dediyim kimi, gəncliyini, gələcəyini, arzularını, özünü tapmaq yolunu, şəxsi inkişafını, ən əsası da təhsilini əlindən alır. Halbuki bu yaşlar insanın özünü tanıdığı və gələcəyi üçün həyatda nə istədiyini başa düşməyə başladığı ən vacib dövrdür. Bu mərhələdə verilən yanlış qərarlar isə sonradan peşmanlıq, daxili narahatlıq və bəzən də xoşbəxt olmayan ailə həyatına gətirib çıxarır.

Təhsil sadəcə məktəbə gedib kitab oxumaq deyil, təhsil insanın özünü dərk etməsi, ayaqları üzərində möhkəm dayanması, həyat qarşısında söz sahibi olması deməkdir. Təhsil bir qızın əlindən alınanda, əslində, onun gələcəyi, seçim haqqı və azadlığı əlindən alınır. Çünki savadlı insan təkcə yaşamaqla kifayətlənmir, o, yaşayacağı həyatı özü qurur.

Erkən yaşda qurulan ailə quruculuq imkanını da yarımçıq qoyur. Dünən arzularının arxasınca qaçmalı olan bir qız, bu gün məcburiyyətlərin içində itib gedir. Halbuki təhsil ona yalnız peşə qazandırmır, həm də düşünməyi, haqqını qorumağı, "yox" deməyi öyrədir. Təhsilli bir qadın həyatın qarşısında susmur. O, danışır, seçir, qərar verir.

Bir qızın təhsili yalnız onun şəxsi gələcəyi deyil, bütöv bir cəmiyyətin gələcəyidir. Təhsilli ana sağlam düşüncəli nəsil yetişdirir, güclü cəmiyyət qurur. Təhsilsiz buraxılan hər bir qız isə yarımçıq qalmış bir həyat deməkdir. Ona görə də erkən evlilik sadəcə bir ailənin qurulması deyil, çox vaxt bir həyatın yarım qalması, bir gələcəyin sönməsi deməkdir. Təhsil isə həmin o sönmək üzrə olan işığı yenidən alovlandıran yeganə qüvvədir.

Unutmaq olmaz ki, evlilik bir seçimdir, məcburiyyət yox. Hər bir insan, xüsusilə də hər bir qız, öz həyatını qurmaq, qərarlarını vermək və gələcəyini seçmək hüququna malikdir. Heç bir adət, heç bir sosial təzyiq bu haqqın önünə keçməməlidir. Cəmiyyət inkişaf etdikcə bu kimi köhnə düşüncələr də dəyişməli, insanın azad seçimi və xoşbəxtliyi hər şeydən üstün tutulmalıdır.

**Afaq Azər**

# EVLƏNDİRMƏ MAKLERLƏRİ



Yığvalınız qara gəlməsin, qulağımız nələr eşidəcək, İlahi. Ev makleri görmüşəm, maşın makleri görmüşəm, torpaq alqı-satqısı ilə məşğul olan makler görmüşəm, amma evləndirmək üçün işi düzüb-qoşan makler eşitməmişdim. Həm də elə-belə yox, düz 1000 lariyə başa gəlir. Bəli, səhv eşitmədiniz, artıq bu sahənin də makleri çıxıb ortaya.

Keçən gün xalalarımla oturub söhbət edirdik. Həmişəki kimi mövzu gəlib çatdı evliliyə. Xalam birdən başladı:

– Ay bala, nə olar bu uşağı da evləndirin, yazıqdır (Uşaq dediyinin də 40 yaşı var). Qoy qardaşınız da ailə-uşaq sahibi olsun.

– Vallah, xala, özün bilirsən, mən də zor-bəla ilə qız axtarıb tapdım. Heç kim belə yaraşığa ərə gəlmək istəmirdi. Axırda qohum-əqrəbaya üz tutub yalvardım ki, qızınızı mənə verin, məni baş-göz edin, yazığam.

Xalam ah çəkdi:

– Ehh, ay bala, qohumda qız qaldı ki, indi hamı qayınatasından-qayınanasından uzaq, tək yaşamaq istəyir.

– Xala, o artıq sənin problemindir – dedim.

Elə bu məqamda söhbət daha da qızışdı, qonşu da gəlib bizə qoşuldu. Uzun müddətdən sonra söhbətə daxil olub başladı xalama yol göstərməyə. Axırda da dedi:

– Kəndimizdə bir makler var, bu işlərə baxır.

Əvvəl elə bildik zarafat edir, nə qədər güldük. Amma baxdıq ki, bu gülmür, ciddi-ciddi danışır. Dedi:

– Vallah, gülməyin, həqiqətdir. Özü də 1000 lari alır.

Bu söhbət məni də maraqlandırdı. Dedim bu yazıdan sonra o makleri tapıb yaxından tanımaq lazımdır.

Söhbət əsnasında yadıma bir hadisə düşdü. Bunu gülmək üçün yox, sadəcə olmuş hadisədir deyə yazıram:

O vaxt kənddə bir az qüsurlu bir gənc var idi. Buna qız axtarırlar, amma heç kim qızını vermir. Haraya gedirlərsə, rədd cavabı alırlar. Axırda ümidlərini kəsməyib üz tuturlar xaricə və nəhayət, oradan bir qız tapırlar. Sonra oğlana kostyum-şalvar geyindirirlər, qalstuk taxırlar, müxtəlif pozalarda şəkillər çəkdirirlər. Şəkillərə baxanda zalım oğlu elə bil Kənan İmirzəlioğludur, vallah. Şəkilləri qız tərəfə göndərib deyirlər:

– Oğlumuz oxumuş, tərbiyəli oğlandır, sadəcə hələ işləmir. Toydan sonra işə başlayacaq.

Beləcə qızı razı salıb alırlar. Zaman keçir, toy günü gəlib çatır. Toyda, Allah var, bəy özünü çox ağır aparır. Arada qəribə hərəkətlər etsə də qohumlar deyir:

– Bəy həyəcanlıdır, ona görə belədir.

Nə isə... Toy qurtarır, gəlinlə bəyi otağa yola salırlar. Hamı elə bilir hər şey qaydasındadır. Amma bəy otağa girən kimi birdən dəyişir, qışqırıq qopur, qışqıra-qışqıra qaçır anasının yanına ki:

– Bu kimdir? Mən bununla yatmaram, mən səninlə yatacam...

Beləliklə, hamının gizlətməyə çalışdığı həqiqət bir anda üzə çıxır. Qız tərəfi şoka düşür, tərəflər arasında söz-söhbət başlayır. Aləm bir-birinə dəyir, hərə bir tərəfdən danışır, ortada şəkil göndərən günahkar axtarılır (Görən bunu da maklermi düzüb-qoşub?) Uzun sözün qısası, gəlin səhəri gün atasının evinə qayıdır. Amma işin ən qəribə tərəfi odur ki, bu hadisədən qazanan yenə oğlan tərəfi olur. Niyə? – Çünki onlar artıq nəməri yığmışdılar...

Nə isə, indi bu hadisəni xatırlayanda düşünürəm, görəsən bu "evləndirmə maklerləri" də belə işlər görür, yoxsa doğrudan düzgün "koordinatlar" ötürürlər? Yəqin ki, o qonşunun dediyi yalan olar.

Əziz subaylar, siz yenə də işinizi maklerə buraxmayın. Ehtiyatlı olun...

**Binəli İslamoğlu**

*"BEEZ" Uşaq Teatrının bədii rəhbəri*

# BİZİ DEYİB GETDİLƏR...



Molladan soruşdular ki: "Niyə axsayırsan?" O dedi: "Dünya əyridir."

Bəli, dünya yumrudur, asan fırlanmaq üçün. Lətifənin məcazi mənası isə dərindir. İnsanlar fərqlidir həyatı məhvərində saxlamaq üçün, yaxşıyla pisin fərqini görmək üçün. Yəni hamı eyni düşüncədə olmadığı kimi, müxtəlif təbəqəli insan xisləti olur. Təbii ki, XX əsrin əvvəlindən bu günə 120 ilin fərqi öz yerində. Hamımız məktəb illərindən halına ya güldüyümüz, ya acıdığımız personajları yaxşı xatırlayırıq. Kim xəsislik etsə adına Hacı Qara, çox yaş fərqiylə evlənənə Məşədi İbad, cahilliyinə görə Novruzəli, özünü kiməsə göstərmək üçün yalançı ədalanana Qurbanəli bəy, içib haqq deyənə Kefli İsgəndər və s. deyirik. Özümüzü o qədər inandırmışıq ki, onların da bizimlə bir arada yaşadığına inanırıq.

Mirzə Fətəliyə deyəndə ki, bir zaman gələcək zamanla ayaqlaşan gənclərimiz olacaq. Deyibmiş ki, ona inanmaq istəyirəm, amma düşünəndə ki, o gəncliyin babası bugünkü cahil olacaq...

Hə, indi öz düşüncəmi yazıram. Hər kəs mühitinin övladıdır. Bunu Aristotel də deyib deyirlər, Məhəmməd peyğənbər də, elə bizim yaxın zamandakı analarımız da. Bizi mühitin pis ünsürlərindən qorumaq üçün ideal "xalxın uşağı"nı da elə XX əsrin ortalarında yaradan analarımızın intellektinin sünii obrazı deyilmi?!

Avropadan gələn mədəniyyət, təhsil, texnologiya bizə kimlərdənsə tez çatdı, Şərqdə yəni. Noolusun ki, əcnəbi balonlarda seyrə çıxanda, biz avtomobili tanımayanda Şərqin ilk deputat qadını bizdə idi – 1918-ci ildə. İlk opera, ilk təyyarəçi, ilk opera yazan qadın, hələ ilk Demokratik Respublika... Şərqin türk dünyası çərçivəsindən baxsaq, dünyanın böyük sultanlığı da bizdə, ilk diplomat qadını da bizdə, sazıyla, sözüylə hakimiyyət idarə edən hökmdar da bizdə.

Bəs niyə Novruzəliləri belə çox hallandırırıq? Kimlərinsə yanında cahil dedikləri kütlə çox görünə bilərdi. Bəs nisbət? Hər kəs mühitin övladıdırsa, sən məni o mühitə bağlayırsansa, əlbəttə, mənim dünyagörüşüm zəif olacaqdı... Müsyo Jordanlar "ot axtarmağa" gələndə, mənim türkəçarələrim çoxdan təbiətin təbabətini yaratmışdılar. Bəzi Şərəfnisələr inanacaqdısa Parisi Dərviş partlatdı, Aşıq Ələsgər kimi oğullar da var idi, saz-söz xiridarları da Birinci Dünya müharibəsinin səbəbinə uzaq bir diyarda qafiyələr qoşurdu:

*Necə oldu Serbiyə, Çornoqoriya,*
*Əl-ayaq altında itdi İtaliya.*
*German bir bomb atdı*
*Qırıldı dünyada insan qalmadı...*

Əsarətdə olan bir millət tapdaq altından bir neçə mənəvi qəhrəman yarada bilirsə, bu, qələbədir.

Məni pərt edən nədir? – Bəzən kimlərsə yazır ki, hələ də Novruzəlilər yaşayır, içimizdə Qurbanəli bəylər çoxdur – məmur olaraq özümüzü təhqir etdirən və s. Razıyam, var elə adamlar. Axundzadə demiş, cahil babaların törəmələri; axı böyük ağacların çətirinin altında nə qədər çürük, faydasız, budaqlar var. Hamısı şaxələnib çətir yaradıb bar vermir ki irsiyyətin faydasız genləri kimi – letal gen.

Biz niyə milli nəsil ağacımızın şaxə qalxan budaqlarından danışmayaq, axı bizə fayda verən, ucalığa aparan yollar varkən, geriləyən, məhvə doğru olan budaqdan budaq olmayacaq, danışmağa dəyməz. Mən, eləcə də bizim nəslin uşaqlığı, gəncliyi internetsiz oldu, dünya görüşünü kitabxanada kitablarla artırdı, məktəbdə müəllimi böyük saydı, eldə ağsaqqalını, professorların mühazirəsini nəfəs almadan dinlədi – biz hesab edirik ki, savadlıyıq.

Gəlin əyri oturaq, düz danışaq, bugünkü gənclik bizdən qat-qat savadlıdır. Daha bizi kimi öyrənmək üçün əziyyət çəkmək də lazım deyil, bütün dünya kitabxanası əlinin altındadır. Heç dil öyrənməyə də ehtiyac yoxdur, tərcüməçi də qulluğundadır. Muzeylərə getmək üçün pul, ölkələrə çıxışa vəsait də lazım deyil, onlayn giriş azaddır...

Bəli, bizim, sözün həqiqi mənasında, ziyalı gənclərimiz var ki, bu fürsətlərdən lazımınca bəhrələnirlər. Tarixi, coğrafiyanı ixtisasından asılı olmadan marağı çərçivəsində araşdırır, hətta tibbi açıqlamaları belə gözəl anlayır və müzakirə edirlər. Nəinki gənclər, elə orta yaşlı insanlar belə müasirliyin yenilikləri ilə bəhrələnirlər, mən daxil. Yəni bizim bu mühitdə kimdir Novruzəli? İndi insanlar məktub yollamırlar, elə mobil bankdaca valyutanı seçirlər... Yox, əgər gördüyünüz üç-beş nəfərdirsə, qəti narahat olmayın, onlar bizim nəhəng böyük çətirli milli ağacımızın kölgədə qalan, faydasız, yaşamaq uğrunda mübarizə aparmayıb, Günəşə doğru can atmayan, elə kölgədə qalıb məhv olmağı qəbul edən insanlarımızdır. Biz istəsək də, istəməsək də onlar elə özləri olacaqlar. Bəlkə onlar bizə faydalı budaqlarla faydasızın fərqini göstərmək üçün Tanrı tərəzisi, bəlkə də Mirzə Fətəli Axundzadənin dediyi o cahil kişilərin törəmələridirlər.

Mən bir müəllim olaraq, şagirdlərlə, tələbələrlə çox ünsiyyət quran bir ziyalı kimi gənclərimizlə fəxr edirəm. Onların dünyagörüşü, həyata baxışı, bacarığı ötən nəsillərdən daha genişdir. Təbii ağac çətirinin yaranması üçün müxtəlif ucalıqlar lazımdır ki, bu balalarımız da var. Heç bir xalq başdan ayağa ziyalı deyil, ola da bilməz. Hər kəsin pisi var, amma bizi qədər böyütmür. Özümüzü ucaldaq ki, çətirimiz böyüsün.

Mən gənclərimizlə fəxr edirəm və deyirəm: Ey bizi deyib gələnlər! Ruhunuz şad olsun! Bu gün cəmiyyətdə hər kəsin ən azı özünü idarə edəcək savadı var, haqqını istəyəcək hünəri var. Gəlin özümüzə qiymət qoyaq ki, qiymətli olaq!!!

**Esmira Ələkbərli**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# GÜRCÜSTANDA REZİDENTURA: TƏHSİL, YOXSA LEQALLAŞDIRILMIŞ İSTİSMAR?

Gəlin bir daha düşünək, bütün bunlar nə dərəcədə vacibdir və anlayaq ki, susmaq olmaz!

Rezidenturaya qəbul balını indiki reallıqdan tamamilə qopmuş, köhnəlmiş və rüsvayçı testlər müəyyən edir ki, bura unudulmuş, çoxdan imtina edilmiş protokollar daxildir.

Bal toplamağımız üçün bizə yanlış testləri və yanlış cavabları əzbərlətdirirlər.

Kobud desək, 1000 diplomlu həkimdən yalnız 100-200 nəfəri imtahandan keçir, qalanlarının ya 6 illik əməyi tamamilə boşa gedir və bu sahədən ümumiyyətlə uzaqlaşırlar, ya da uzaqlaşmırlarsa, illərlə 600-700 lariyə işləyirlər, yaxud da başqa ölkəyə gedib fəaliyyətlərini orada davam etdirirlər.

Özəl rezidenturaya qəbul olmaq imkanı tamamilə tanışlıqdan, əməkdaşlıqdan və qohumluqdan asılı hala gəlib; bu, balla, erudisiya/biliklə müəyyən edilmir, bu da həm sahənin nümayəndəsinə, həm də gələcək pasiyentə zərər verir – qeyri-peşəkarlıq və nəzarətsizlik hökm sürür.

Özəl rezidenturaya qəbul olduğun təqdirdə hər ay klinikaya gedib 500-800 lari ödəyirsən ki, ora gedəsən, işləyəsən, növbətçi qalasan, gecəni yatmayasan, klinikanın işini görəsən və hələ bir üstəlik pul da ödəyəsən; real biliyi, izahı, manipulyasiyaların praktikasını və hətta dərslikləri belə sənə heç kim vermir.

Paralel olaraq isə başqa işdə işləyirsən və cəmi 600 və ya 700 lari alırsan! Ən azı 29-30 yaşınadək ailənin hesabına yaşayırsan!

Son ildə müəyyən istiqamətlər defisit sahə elan edildi və bir çoxları çox məsuliyyətli sahələr üzrə, xüsusilə anestezilogiya-reanimatologiya, cərrahiyyə istiqamətləri və təcili tibbi yardım və s. üzrə rezidentura keçmədən lisenziya aldılar. Faktiki olaraq, həyat keşiyində duran həkimlərin təhsil səviyyəsi şübhə altındadır; lisenziyaların paylanması isə sənədlərin saxtalaşdırılması, tanışlıq və bir çox qanunsuz hərəkətlərlə baş tutdu.

Bununla paralel olaraq, "defisit" sahələr üzrə cəmi 2-4 yer elan edilməsi faktının necə mümkün olduğunu və hansı məntiqlə izah edildiyini bilmirəm. Əgər sahə defisitdirsə, niyə yerlər elan edilmir və niyə dövlət müvafiq proqramla daha çox rezident hazırlamağın qayğısına qalmır?

Məvacib: Sonradan lisenziya almış həkimin də vəziyyəti heç də yaxşı deyil, çünki məvaciblərin rüsvayçı rəqəmləri səbəbindən ailəsini dolandırmaq üçün 2 və ya 3 işdə işləmək məcburiyyətində qalır. Faktiki olaraq, həkim öz həyatından imtina etməli, növbətçi qalmalı, yatmalı və ailəsinin, övladının elementar ehtiyaclarını qarşılaya bilməsi üçün yenidən növbətçi qalmalı olur.

Buna necə səs çıxarmamaq olar!

Hər şeyi etməliyik ki, nəsə dəyişsin! Hamımız bir yolun yolçusuyuq, amma bu ölkəni sevən və burada həkimlik etmək istəyənlər – belə davam edərsə, yaşaya bilməyəcəksiniz, sadəcə mövcud olacaqsınız. Çünki gəliriniz yetməyəcək, əlinizdə qalan isə yalnız bəzi vicdansızların cibini doldurması naminə pozulmuş sağlamlığınız və psixikanız olacaq.

Anlaşılandır, hesab edirsiniz ki, etirazın mənası yoxdur, bunun üçün vaxtımız yoxdur, imkanımız yoxdur və s. Lakin səs çıxarmasaydıq, indi vəziyyət qat-qat pis olardı. İmtahanın ildə iki dəfə keçirilməsi üçün bələ vaxtilə tələbələr və namizədlər mübarizə aparıblar. Ona görə də, yaxşı olar ki, aşağıdakı məsələlərlə bağlı səsimizi ucaldaq:

Gürcüstanda rezidentura: Təhsil, yoxsa leqallaşdırılmış istismar?

Gəlin bir daha həqiqətin gözlərinə baxaq: Gürcüstanda tibbi təhsil sistemi kollapsın astanasındadır. Hər il ölkə daxilində 1000-ə yaxın tələbə fakültəni bitirir və bir o qədər də birinci kursa qəbul olur, dövlət isə onlara yalnız cüzi yerlər təklif edir; yəqin ki, dövlət rezidenturası üçün ayrılmış o gülünc sayda yerləri görmüsünüz.

Bəs yerdə qalanların taleyi necə olsun? Məsələn, 195 bal toplayanın? Lakin radiologiya üzrə ayrılmış 2 yeri yəqin ki, USMLE imtahanını verənlər tutacaqlar.

1. Avropa standartı əvəzinə "pullu köləlik" – yəni klinikada ucuz işçi qüvvəsi kimi qalmaq ki, bundan da istər özəl, istərsə də səhiyyə sektoru olsun, yalnız klinika qazanır.

Bu, o halda baş verir ki, Almaniya, Fransa, Polşa və ya Çexiyada rezident layiqli maaş alan (ölkədən asılı olaraq orta hesabla 2500-5000 avro) tamhüquqlu həkimdir; bizdə isə rezidentura mental və fiziki tükənmə hesabına klinikanı həm də pulla təmin edən bir biznesə çevrilib.

1) Faktiki olaraq, bizi işləmək üçün ayda 600-800 lari ödəməyə məcbur edirlər!

Bu, o halda baş verir ki, kiçik həkimin maaşı çox vaxt bu məbləğdən azdır. Belə çıxır ki, klinikanın işinə "kömək etmək" üçün pulu ailəmizdən gətirməliyik.

2) Keyfiyyət vs pul.

Avropada rezidenturaya ciddi şəkildə nəzarət olunur – klinika sənə öyrətməyə borcludur. Bizdə isə özəl rezidenturaların əksəriyyəti yalnız pula yönəlib. Tədris formaldır, real yerlər isə çox vaxt nepotizm və tanışlıqla paylanılır. İstedadlı, lakin "sahibsiz" kadr rezidenturadan kənarda qalır.

3) Hara gedirik?

Dövlət bir tərəfdən kadr çatışmazlığından və həkim axınından şikayətlənir, digər tərəfdən isə gənc həkimin hələ ikinci kursdan ölkədən qaçmağı planlaşdırması üçün hər şeyi edir.

4) "Defisit" elan olunan ixtisaslar üzrə niyə 2-4 yer ayrılır?

Maraqlıdır, neçə nəfər ayağa qalxıb nazirliyin qarşısına gedə və bu məsələni qaldıra bilər:

- Rezidentura yerlərinin artırılması və məzunların sayına uyğunlaşdırılması!
- Rezident bütün normal ölkələrdə maaş alır, lakin biz ən azından ödənişin indiki qədər olmamasını, yaxşı halda isə ümumiyyətlə olmamasını tələb etməliyik!
- Şəffaf və obyektiv seçim sistemi özəl klinikalarda da tətbiq olunmalıdır; kimin neçə balla qəbul olunduğu hamı üçün açıq olmalıdır! Babaların və dayıların zəngi ilə "tapşırılmaq" sisteminə son qoyulmalıdır! Özəl klinikalarda tədrisin keyfiyyətinə ciddi nəzarət edilməlidir.
- Piar kampaniyaları olmadan layiqli məvacib verilməlidir. Əgər həkimlərin də, məsələn, təcili yardım həkiminin saatda 12-14 lari alması xoşlarına gəlmirsə, onlar da öz fikirlərini deyə bilərlər.

Müəllif: **İya Kurasbediani**
*Tbilisi Dövlət Universitetinin Tibb fakültəsinin məzunu, diplomlu həkim, təcili yardımın kiçik həkimi.*

*Gürcü dilindən tərcümə etdi* ***Aynurə Əliyeva***

# BELƏ-BELƏ İŞLƏR: QALAKTİON TABİDZE



(əvvəli ötən sayda)

Qalaktion bir az sərxoş idi. Onun təəccüblü dərəcədə dərin, ağıllı və gülümsəyən gözlərində bir qığılcım alışdı. Danışmaq həvəsinə düşdü.

– Siz nə edirsiniz, əzizlərim, şeir yazmırsınızmı?

– Mən yox, bu yazır! – dedi Quram.

– Mən artıq şeir yazmıram! – dedim.

– Bəs niyə, əzizim, hamı yazır və sən nə günahın yiyəsisən? Yaz, yaz, şeir yazmaq yaxşıdır, – dedi mənə və əli ilə başımı sığalladı.

– Siz ki, şeirlər yazırsınız, elə şeirlər yazmaq yaxşıdır, cənab Qalaktion – dedim.

– Pis şeir yazmaq da yaxşıdır, məcburi deyil hamı yaxşı şeirlər yazsın.

Qalaktion güldü... Quram ağzını açmışdı. Əlimi tutmaq istəyirdim ki, axmaq bir şey deməsin, amma bacarmadım.

– Şeirləri necə yazırsınız, cənab Qalaktion? – Quram soruşdu və qalib gəlmiş sifətlə mənə baxdı.

Qalaktion Qurama elə baxdı ki, ürəyim Quramın mərhəmətindən təsirləndi.

Quram ağzını yummuşdu. Axmaq bir şey deməsin deyə ağzımı əlimlə yummaq istədim, amma bacarmadım.

Qalaktion Qurama elə baxdı ki, ona yazığım gəldiyindən ürəyim yandı.

Sonra yenidən şərab tökdü, gözlərini yumdu və dedi:

– Mən dənizi çox sevirəm. Dənizi və Günəşi. Hər yay Suxumiyə gedirəm, qumda böyük bir çuxur qazıram, içinə uzanıram və özümü boynuma qədər basdırıram. Sonra üzümü Günəşə çevirib gözlərimi yumuram, indiki kimi, belə. Əvvəlcə qaranlıqdır, sonra qırmızı, sarı, narıncı rəngli halqalar görünür. Sonra parlayır, parlayır və Günəş gözlərimə enir, böyük, nəhəng parlaq bir Günəş. Günəş göz qapaqlarına, sümüklərə, ətə, qana nüfuz edir, Günəş hər şeyə nüfuz edir, Günəş hətta məzara da nüfuz edir. Sonra göydən ağ bir mələk, gözəl, ağ bir mələk enir və qulağıma şeirlər diktə edir...

Qalaktion susdu.

Gözlərini yumub uzun müddət belə oturdu və mən inanırdım ki, o, hələ də ağ mələyin qulağına söykəndiyini, Günəş qədər böyük və parlaq şeirlər diktə etdiyini görə bilir.

Sonra gözlərini açdı və mən ikonaya and içirəm ki, onun gözlərində iki nəhəng yanar Günəş gördüm.

“Düz deyirsən, əzizlərim”, – deyə çox ciddi şəkildə dedi və stəkanını qaldırdı. “Mələk yaşasın!” – dedi və içdi.

“Cənab Qalaktion, doğrudanmı sizə bir mələk diktə edir?” – deyə çəkinərək soruşdum.

– Bəli, əzizim, mələk mənə diktə edir, bəs şeirlər yazmağa harada vaxtım var, – Qalaktion özünü yazıqlayaraq dedi.

– “Nikortsminda” mələyimi diktə etdi? – Quram soruşdu.

– “Nikortsminda” mələyi də mənə diktə etdi, – Qalaktion başını yellədi.

(Nodar Dumbadze)

***

Qalaktion Tabidzenin axşamı Rustaveli Teatrının zalında keçirilirdi. Mühit kasıb görünürdü.

Az əhəmiyyətli müəlliflər Qalaktiona həsr olunmuş az əhəmiyyətli şeirlər və tərcümələr oxuyurdular.

Üç aylıq ayıqlıqdan sonra Qalaktion sərxoş oturmuşdu və əyri güzgüdə olduğu kimi, öz ağlında əks olunmuşdu. Həmişəki kimi həyəcanlanırdı.

Mən Qalaktiona baxırdım, sanki gözlərimlə süzüb ondan həzz alırdım. Sonra o tək qaldı. S.Abaşelinin bizə xəbər verdiyi kimi, o, yeni şeirlərini oxumalı idi.

Qalaktion ayağa qalxaraq uzun müddət nəsə mızıldandı, tamaşaçılara gəldiklərinə görə təşəkkür etdi və əllərini ovuşdurdu. Sonra o, köhnə, gözəl şeirlərindən üçünü oxudu: “Mən və gecə”, “Mtatsmindanın ayı” və üçüncünü də elə bu silsilədən.

Lakin necə oxuyurdu! Bütün ruhunu şeirlərinə qoydu. Artıq edə bilmirdi. Susdu. Əli ilə masaya, nə təhərsə hədə-qorxu ilə vurdu, geri döndü, yenidən vurdu və getdi. Uzun müddət onu səslədilər. O qayıtdı, heç danışa bilmirdi.

Bizə dedi ki, iştirakımıza görə minnətdardır, başqa vaxt yenə şeirlər oxuyacaq və elə bir dillə ifadə olunmayan bir jest etdi, sanki bunu deyirmiş kimi... Bilmirəm nəyi.

Onu necə sevirdim! Ona tərəf qaçdım...

Gürcü lirikasında heyrətamiz rənglərin keçidini yalnız o bilir. Təbiətdəki fərqli, sirli zəngləri – həm şaxtada, həm də Günəşin qızmar istisində – başa düşür, həmişə başa düşür, amma açarından istifadə edə bilmədiyin kilidlərlə bağlıdır.

Şəxsi həyatını şeirinin mavi işığı ilə örtdü və onu əlçatmaz dan ulduzuna çevirdi.

O kimdir?

Necə yaşayır?

Nə istəyir?

Heç kim bilmir...

*(Elene Bakradzenin xatirələrindən bir parça. Kolleksiya. “Qalaktionologiya” məcmuəsi, X, 2025)*

***

Qalaktionla həmişə yaxşı, mehriban münasibətlərimiz olub. Mən onu həmişə böyük şair kimi qiymətləndirmişəm...

Onun məndən inciyib qisas almağa çalışdığı bir hadisəni xatırlayıram.

Belə bir sətirləri olan şeiri dərc etdim:

Müraciət etmək axmaqlıqdır:

“Siz, səmanın tavanları, Mtatsminda, Madatov!..” – Bu, Qalaktionun poeziya lüğətindən idi və buna görə də sözlərimdən incimişdi... O, özünü təhqir olunmuş hiss etdi və qəzəbini bu şəkildə ifadə etdi:

O vaxtlar bir axşam ədəbi arenaya yeni qədəm qoymuş gənc şairlərlə birlikdə Rustaveli prospektində gəzirdim. Bir az dəmli olan Qalaktion bizə çatdı və bizə qoşuldu.

O, ədəbi mübahisəmizə müdaxilə etdi (Nə barədə mübahisə etdiyimizi xatırlamıram), mənə qarşı hücuma keçdi və gəncləri öz tərəfinə çəkməyə çalışdı.

Fikirlərini sübut etmək üçün gah birinə, gah da o birinə müraciət edirdi: “Düz deyilmi, əzizim?..” Mən onu tutdum, o, onlara adları ilə müraciət etmək istəyirdi, amma onların adlarını bilmirdi və ya qarışdırırdı. O gənclər də bunu anlayır və gülümsəyirdilər.

Mən vəziyyətdən istifadə edib həmin gənc şairlərin adlarını, əlbəttə ki, səhvən Qalaktiona diktə etdim. Mən Palikonu Ekvtime kimi, Cangonu Bejan adlandırdım və s.

Bu, gülüşə səbəb oldu. Gülüş davam edirdi və Qalaktion səbəbini başa düşə bilmirdi. O, yalnız gənclərin ona dəstək ola bilməyəcəyini anladı. Ürəyi sıxıldı və mənə qarşı daha da şiddətlə hücuma keçdi.

Mən zarafatla dedim: “Mənə niyə ilişdin, bir-birimizi döyməyimizi istəyirsən?”

O, açıq şəkildə cavab verdi: “Gəlin bir-birimizi döyək, kim qorxsa, utandıracam”.

Gənclər də bu mənzərəni seyr etməkdən çox ləzzət alırdılar. Mən bunu yaxşıca hiss edirdim. Sözsüz ki, axmaq kimi görünməklə özümün və Qalaktionun, hər ikimizin məsxərəyə qoyulmasını istəmirdim.

Bütün bunları zarafat kimi səsləndirməyə çalışdım, amma hər halda cavab verdim: “Gəlin çıxaq, bir-birimizi döyək”.

Qalaktion pencəyini çıxarıb küçənin ortasına çıxdı (İndiki “Tbilisi” otelinin yanında idi), başımı yelləyərək çıxdım, amma bir-birimizə yaxınlaşanda gülərək müraciət etdim:

“Torağayı hər halda öldürməyəcəyəm,

Çoxlu dərmanım da olsa belə...”

Və onu vurmaq əvəzinə, barışmaq üçün əlimi uzatdım. Qalaktion tərəddüd edirdi, amma ortaq bir qəh-qəhə ilə bir-birimizi qucaqlayıb barışdıq. Bundan sonra Qalaktionla mən heç vaxt bir-birimizə qarşı kin saxlamadıq. Həmişə dostcasına idik. Görüş zamanı bir-birimizə uzaqdan salam vermək halı olmayıb. Həmişə əl sıxırdıq, bir-birimizin kef-əhvalını soruşurduq.

Yeni nəşr olunmuş bir şeirimi bəyəndiyi və bunun məni daha çox yazmağa və kitabların nəşri uğrunda mübarizə aparmağa təşviq, təhrik etdiyi hallar olub.

*(Qriqol Sesxladzenin xatirələri. “Qalaktionologiya” toplusundan, X, 2025)*

*(davamı növbəti sayda)*

Topladı və gürcü dilindən tərcümə etdi:
**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 APREL
2026-CI İL
№ 07 (247)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## YETKİNLİK YAŞINA ÇATMAYAN HAMİLƏLƏRİN SAYI ARTIB



Gürcüstanda uşaq yaşda nikah və nişanlanma hələ də ciddi problem olaraq qalmaqdadır. Gürcüstanın Xalq Müdafiəçisinin ən son parlament hesabatında ("Gürcüstanda insan hüquq və azadlıqlarının müdafiəsinin vəziyyəti haqqında – 2025") qeyd olunur ki, ötən illə müqayisədə bu il yetkinlik yaşına çatmayan hamilələrin sayı artıb, lakin yetkinlik yaşına çatmayan valideynlərin sayı azalıb.

***"Milli Səhiyyə Agentliyinin məlumatına görə, 2025-ci ilin yalnız 11 ayının göstəricilərinə əsasən, 436 yetkinlik yaşına çatmayan hamilə qeydə alınıb, 2025-ci ildə isə ümumilikdə 287 yetkinlik yaşına çatmayan valideyn uçota alınıb",*** – deyə Ombudsmanın hesabatında bildirilir.

Xalq Müdafiəçisi yazır ki, araşdırılan işlərə əsasən, uşaq yaşda nikah hallarına qarşı effektiv reaksiya verilməsi problemi hələ də özünü büruzə verir:

***"Xalq Müdafiəçisi illərdir ki, yetkinlik yaşına çatmayanların nişanlanması və ya nikah məqsədilə bağlanan sövdələşmələrin kriminallaşdırılmasının zəruriliyini göstərir, lakin effektiv mexanizmlərin yaradılması istiqamətində 2025-ci ildə də kəsərli addımlar atılmayıb".***

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Xalq Müdafiəçisi Təhsil, Elm və Gənclər nazirinə tövsiyələrlə müraciət edir və tələb edir ki:

Məktəb administrasiyası nümayəndələri üçün uşaq nikahı hallarının aşkarlanması, effektiv reaksiya verilməsi və müvafiq qurumlara yönləndirilməsi ilə bağlı vahid Standart Əməliyyat Prosedurları (SOP) təsdiq edilsin.

Qadınlara qarşı zorakılıq və/və ya məişət zorakılığı qurbanlarının müəyyən edilməsi, onların müdafiəsi, yardımı və reabilitasiyası məqsədilə həyata keçiriləcək tədbirlər üçün standart əməliyyat prosedurları hazırlansın və təsdiq edilsin.

*Mənbə: edu.aris.ge*

## AİLƏSİ İLƏ XARİCƏ GETDİYİNƏ GÖRƏ 3669 ŞAGİRDİN STATUSU DAYANDIRILIB




2025-ci ildə 7248 şagirdin statusu dayandırılıb, 1366 şagirdin statusu isə ləğv olunub – Xalq Müdafiəçisinin hesabatında qeyd olunub. Hesabat Gürcüstanda insan hüquq və azadlıqlarının qorunma vəziyyəti haqqındadır. Hesabatda qeyd olunub ki, 2025-ci ildə də şagirdlərin böyük qisminin statusunun dayandırılmasına/ləğv olunmasına səbəb ailəsi ilə birlikdə xaricə getmək olub. 2025-ci ildə bu səbəblə 3669 şagird, 2024-cü ildə isə 3900 şagird məktəbi tərk edib.

Ümumi təhsilin davamlılığı baxımından yenidən problemli tendensiyalar ortaya çıxır. 2025-ci ildə 7248 şagirdin statusu dayandırılıb, 1366 şagirdin isə statusu ləğv edilib.

Hesabatda yazılanlara görə, statusun dayandırılması və ləğv edilməsi əksər hallarda yenidən "ailə ilə xaricə getmək", "valideynin/qanuni nümayəndənin/şagirdin ərizəsi", 45 gün ərzində şagirdin dərsə gəlməməsi və "peşə kollecində təhsilini davam etdirməsi" əsası ilə olur.

***"Beləliklə, ən yüksək göstərici ötən ildə olduğu kimi, yenə də Tbilisidə (3434), Kvemo Kartlidə (1371), Acarada (1050) qeydə alınıb.***

***Gürcüstan Xalq Müdafiəçisi uzun illərdir ki, şagirdlərin statusunun dayandırılması/ləğv edilməsinin vahid statistikasının qaydaya salınmasının vacibliyini qeyd edir. Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyi tərəfindən həyata keçirilmiş işlərə baxmayaraq, proses hələ də başa çatdırılmayıb. Müvafiq olaraq, statistikanın toplanması üçün mövcud forma və təhsili tərk etmənin əsasları yenidən dəqiqləşdirilməlidir"*** – hesabatda qeyd olunur.

Mənbə: etaloni.ge

## GÜRCÜSTANDA KREDİT GÖTÜRƏNLƏRİN SAYI ARTIB




Gürcüstanda faktiki olaraq hər ikinci vətəndaşın kredit borcu var, hər onuncu şəxs isə kredit ödənişlərini gecikdirir. Bu barədə "Kreditinfo Gürcüstan"ın 2026-cı ilin mart ayına dair son statistik məlumatlarında qeyd olunub. Məlumata görə, ölkədə kreditlər üzrə gecikmə səviyyəsi əhalinin 10,1 faizini təşkil edir.

2026-cı il martın 31-nə olan vəziyyətə görə, Gürcüstanda 1 milyon 984 min 700 nəfərin kredit borcu var. Onlardan 372 min 477 nəfərin ödənişlərində 30 gündən artıq gecikmə qeydə alınıb. Bu isə Gürcüstan Milli Statistika Xidmətinin son məlumatına əsasən, 3 milyon 704 min 506 nəfər olan ölkə əhalisinin əhəmiyyətli hissəsini təşkil edir.

Statistikaya görə, 30 gündən çox gecikməsi olan şəxslərin sayı son bir ildə 7 min 068 nəfər artıb, son bir ayda isə 1182 nəfər azalıb. Müqayisələrə əsasən qeyd edilir ki, 2026-cı ilin fevral ayının sonunda bu göstərici 373 min 659 nəfər, 2025-ci ilin martında isə 365 min 409 nəfər olub.

Eyni zamanda, 2026-cı il martın 31-nə olan vəziyyətə əsasən, kredit borcunu ödəyə bilməyənlərdən 101 min 026 nəfər kommersiya banklarının müştərisidir. Qalanı isə Milli Bank tərəfindən tənzimlənən digər maliyyə institutlarının (mikromaliyyə və kredit təşkilatları) və təşkilatların (tikinti şirkətləri, distribütorlar, lizinq şirkətləri və s.) qarşısında borcludur.

Gecikmiş kreditlər üzrə ümumi qalıq borc 2,933 milyard lari təşkil edir ki, bu da maliyyə sektoru tərəfindən verilmiş ümumi kredit portfelinin 3,8 faizinə bərabərdir.

Ümumilikdə isə ölkədə verilmiş kreditlərin ümumi həcmi 77,2 milyard larini ötür.

## RUSTAVİLİ ƏBÜLFƏZ MƏMMƏDOV ŞİMALİ MAKEDONİYADA KEÇİRİLƏN TURNİRDƏ QIZIL MEDAL QAZANIB



Gürcüstanın Rustavi şəhərindən olan 17 yaşlı azərbaycanlı Əbülfəz Məmmədov Şimali Makedoniyada keçirilən "Skopje Open Raumus 2026" taekvondo turnirində qızıl medal qazanıb.

Əbülfəz Məmmədov yarışda yüksək pumse texnikası və akrobatik elementləri ilə fərqlənərək güclü rəqiblərini üstələyib.

Qeyd edək ki, Əbülfəz Məmmədov 48 kiloqram çəki dərəcəsində bütün rəqiblərini məğlub edərək turnirin qalibi olub.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.